

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 12 (23.424)

*22 yanvar 2020-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*



Yanvarın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlu ilə görüşüb.

Görüşdə ikitərəfli dostluq və qardaşlıq münasibətlərinin uğurlu inkişafından məmnunluq ifadə olunub, əlaqələrimizin bütün sahələrdə genişləndiyi vurğulanıb.

Söhbət zamanı Azərbaycan və Türkiyə prezidentləri arasında yüksək səviyyəli görüşlərin münasibətlərimizin möhkəmlənməsində rolu qeyd edilib. Azərbaycanla Türkiyənin birgə həyata keçirdiyi qlobal əhəmiyyətli layihələrin önəmi vurğulanıb.

* * *

Prezident İlham Əliyev həmin gün Davosda Dünya İqtisadi Forumunun prezidenti Borge Brende ilə görüşüb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda Xorvatiya Respublikasının Baş Naziri Andrey Plenkoviç ilə görüşüb.

* * *

Dövlətimizin başçısı həmin gün Davosda "Carlsberg Group" şirkətinin baş icraçı direktoru Cees't Hart ilə görüşüb.

* * *

Prezident İlham Əliyevin yanvarın 21-də Davosda "Signify" şirkətinin baş icraçı direktoru Erik Rondolat ilə görüşü olub.

## Ötən ilin yekunları müzakirə olunub



*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində 2019-cu ildə görülmüş işlər və qarşıda duran vəzifələrlə bağlı kollegiya iclası keçirilib.*

İclası giriş sözü ilə açan nazir Niyazi Novruzov bildirib ki, muxtar respublikada həyata keçirilən sosial-iqtisadi islahatların səmərəliliyi, insanların sosial rifah halının daha da yaxşılaşması, müalicə-profilaktika işlərinin təşkili sahəsində görülən tədbirlər, tibbi xidmətin keyfiyyətinin və əhatəliliyinin artırılması və ümumiyyətlə, əhali rifahının davamlı yüksəlişi demoqrafik vəziyyətə də müsbət təsirini göstərib. Belə ki, muxtar respublikada 2019-cu ildə 5303 uşaq doğulub, təbii artım 0,7, doğum göstəricisi 11,5, ölüm göstəricisi 4,5, 1 yaşa qədər uşaq ölümü 1,1 promilli təşkil edib.

Nazir diqqətə çatdırıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın icrasının davam etdirilməsi, uşaqlara göstərilən tibbi xidmətin səviyyəsinin yüksəldilməsi, onların sağlamlıq vəziyyətinin yaxşılaşdırılması, uşaq ölümünün azaldılması istiqamətində müsbət nəticələr əldə edilib. İl ərzində digər dövlət proqramları da uğurla icra olunub. Elə buna görədir ki, Naxçıvan şəhəri ilə yanaşı, rayon mərkəzi xəstəxanalarında 141 xəstə hemodializ seansı alır, şəkərli diabet xəstələrinin dərman və özünənəzarət vasitələrilə təminatı xeyli yaxşılaşdırılıb.

Son illər qan xidmətinin inkişafına da xüsusi diqqət yetirildiyini vurğulayan nazir bildirib ki, hazırda Naxçıvan Muxtar Respublika Xəstəxanasında mövcud şərait Mərkəzi Qan Bankının fəaliyyətinə geniş imkanlar açıb. Görülən işlərin nəticəsi olaraq muxtar respublikada talassemiya və hemofiliyalı xəstələrin ömür müddəti xeyli uzadılıb. Muxtar respublikada 37 talassemiyalı, 76 hemofiliyalı xəstə qeydiyyatda durur ki, onların qan komponentləri ilə bərabər, dərman təminatı da yüksək səviyyədə aparılır.

Vurğulanıb ki, muxtar respublikada Duzdağ Fizioterapiya Mərkəzində duz, Darıdağ Arsenli Su Müalicəxanasında su, Diaqnostika Müalicə Mərkəzində aparılan "Şorsu" vulkanik palçığı ilə müalicələr, eyni zamanda səhiyyə turizminin inkişafına da stimul verir. Nəticədə, muxtar respublikada 2018-ci ildən sanator-kurort müalicələrinə başlanılıb. Ötən il Azərbaycanın digər rayonlarından 447 sağlamlıq imkanları məhdud şəxsin müalicə kursu keçməsi təşkil edilib. Naxçıvan Muxtar Respublikası Diaqnostika Müalicə Mərkəzi publik hüquqi şəxsində "Şorsu" palçığı ilə müalicəyə gələnlərin sayı artmaqdadır.

Səhiyyə naziri hesabat dövründə tibb işçilərinin ixtisas səviyyəsini artırmaq məqsədilə görülən çoxsaylı tədbirlərdən bəhs edərək deyib ki, bu müddət ərzində müxtəlif klinikalardan yüksəkixtisaslı həkimlər və kollektivlər muxtar respublikaya dəvət olunub və Naxçıvan həkimləri ilə birgə xeyli sayda mürəkkəb əməliyyatlar aparılıb.

Həyata keçirilən səhiyyə islahatlarının ən mühüm cəhətlərindən birinin də muxtar respublikada icbari tibbi sığortanın tətbiqi olduğunu bildirən Niyazi Novruzov Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" 2019-cu il 18 mart tarixli Fərmanının əhəmiyyətindən danışıb. Qeyd olunub ki, Ali Məclis Sədrinin sərəncamları ilə ötən il Sədərək, Şərur, Kəngərli, Şahbuz, Ordubad, Babək rayonlarında, həmçinin respublika və şəhər əhəmiyyətli tibb müəssisələrində icbari tibbi sığortanın tətbiqinə başlanılıb.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən dövlət musiqi təhsili müəssisələrinə işə qəbul üçün 18 oktyabr 2019-cu il tarixdə elan olunmuş müsabiqənin müsahibə mərhələsi keçirilib.*

## Müsahibə mərhələsi keçirilib



Məlumat üçün bildirək ki, müsabiqəyə çıxarılmış 186 vakant vəzifənin tutulması üçün 61 nəfər sənəd təqdim etmişdi. 25-26 dekabr 2019-cu il tarixlərdə keçirilmiş test imtahanlarında iştirak edən 60 namizəddən 13-ü müvafiq keçid balını toplayaraq müsahibə mərhələsində iştirak etmək hüququ qazanıb.

Müsabiqənin keçirilməsində əsas məqsəd tədrisin keyfiyyətinin artırılması üçün dövlət musiqi təhsili müəssisələrinin ixtisaslı kadrlarla təmin edilməsidir.

Naxçıvan Musiqi Kollecində işə qəbul üçün ali təhsil müəssisələrini, uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinə işə qəbul üçün ali və ya orta ixtisas təhsili müəssisələrini bitirmiş şəxslər iştirak ediblər.

Qanunvericiliyə əsasən müsahibənin keçirilməsi üçün 5 üzvdən ibarət komissiya yaradılıb. Müsahibə zamanı namizədlərin praktik hazırlığı, peşəkarlıq və ifaçılıq qabiliyyətləri yoxlanılıb. Bu mərhələdə namizədlərə tapşırıqların yerinə yetirilməsi üçün 30 dəqiqə vaxt verilib. Müsahibənin nəticələri beşballıq sistem əsasında qiymətləndirilib, hər bir namizəd üçün ümumi bal çıxarılıb, nəticələri "Namizədin qiymətləndirilməsinə dair bal cədvəli" ilə və müsahibənin yekun nəticələri "Namizədin qiymətləndirilməsinə dair yekun protokol"la rəsmiləşdirilib. Müsahibənin nəticələri haqqında məlumatlar dərhal Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın rəsmi internet portalında *(www.dqmk.nmr.az)* yerləşdirilib.

Müsahibə mərhələsində 12 nəfər iştirak edib. Müvafiq keçid balını (12 və ya daha çox) toplayaraq uğur qazanmış 8 namizədin sənədləri işə təyinat üçün Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinə göndəriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## Cari ilin ilk ayı üçün əmək pensiyalarının ödənişi vaxtından əvvəl maliyyələşdirilmişdir

*Ölkəmizdə uğurla həyata keçirilən islahatlar sosial sahədə ciddi dəyişikliklərə səbəb olmuşdur. İllərini əməyə sərf edən pensiyaçılar üçün rahat və beynəlxalq standartlara uyğun xidməti təmin etmək məqsədilə müvafiq tədbirlər görülmüşdür.*

Muxtar respublikamızda da əmək pensiyaçılarının rahatlığının təmin olunması, onların rifah halının yaxşılaşdırılması istiqamətində tədbirlər daim diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bilavasitə qayğısı nəticəsində bütün növ əmək pensiyalarının və müavinətlərin hər ay vaxtından əvvəl maliyyələşdirilməsi təmin olunur. Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu bu sahədə üzərinə düşən tapşırıqların yerinə yetirilməsi üçün mütəmadi olaraq tədbirlər görür. Bunun nəticəsidir ki, muxtar respublika üzrə 2020-ci ilin ilk ayının əmək pensiyalarının ödənişi vaxtından əvvəl maliyyələşdirilmiş, təyin olunmuş əmək pensiyalarının ödənişi plastik kartlar vasitəsilə pensiyaçılara çatdırılmışdır. Muxtar respublikanın kəndlərində yaşayan əmək pensiyaçıları isə bununla yanaşı, yaşadığı məntəqədən kənara getmədən ərazidə yerləşən poçt bölmələri vasitəsilə də pensiyalarını rahatlıqla əldə etmişlər. Eyni zamanda əhaliyə məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin də vaxtında ödənilməsi üçün müvafiq işlər görülmüşdür. Həmin şəxslərin şəxsi hesablarına və ya poçt ünvanlarına vəsaitin köçürülməsi təmin edilmişdir.

Məlumat üçün bildirilir ki, 2019-cu ilin əvvəlində ölkəmizdə pensiyaların minimum məbləği 116 manat idisə, hazırda bu göstərici 72 faiz artaraq 200 manat təşkil edir. Bu isə onu təsdiq edir ki, əhalinin həssas qrupu sayılan pensiyaçıların maddi rifah halının yaxşılaşması üçün pensiyaların həcminin artırılması hər zaman diqqət mərkəzində saxlanılır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Ötən il 87 ailə təsərrüfatına 820 min manata yaxın dövlət maliyyə dəstəyi göstərilib

***Muxtar respublika iqtisadiyyatında diqqətçəkən fəaliyyət istiqamətlərindən biri də ailə təsərrüfatlarıdır.***

Son dövrlərdə dövlət tərəfindən bu fəaliyyət sahəsinin təşviqi ilə bağlı atılan addımlar muxtar respublikada ailə təsərrüfatlarının sayının artmasına imkan verib. 2019-cu ilin muxtar respublikada "Ailə təsərrüfatları ili" elan olunması, ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planının təsdiq edilməsi mövcud potensialdan istifadə etməklə yeni ailə təsərrüfatlarının yaradılması, istehsalın genişlənməsi, yeni iş yerlərinin açılması ilə nəticələnmişdir.

Bu sahədə görülən işlərin davamı kimi ailə təsərrüfatlarına metodik və əməli köməkliklər göstərmək, ailə əməyinə əsaslanan təsərrüfatların fəaliyyətini dəstəkləmək, əhalinin məşğulluğunu artırmaq sahəsində əlavə imkanlar yaratmaq, onların maliyyə resurslarına çıxışının təmin edilməsi məqsədilə ötən il 87 ailə təsərrüfatına 820 min manata yaxın dövlət maliyyə dəstəyi göstərilib, 315 ailə təsərrüfatı 12 min 800-dən çox tara ilə təmin olunub.

Qeyd edək ki, əvvəlki illərdə olduğu kimi, 2019-cu ildə də muxtar respublikada "Kətə", "Göycə", "Arıçılıq məhsulları – bal", "Ailə təsərrüfatı məhsulları" festivallarının keçirilməsi bu sahəyə marağın artmasına və istehsal olunan məhsulların satışına müsbət təsir göstərib. "Ailə təsərrüfatı ili"ndə muxtar respublikanın paytaxtı ilə yanaşı, ayrı-ayrı rayonlarında da "Ailə təsərrüfatı məhsulları" festivallarının keçirilməsi daxili bazarın yerli, keyfiyyətli ərzaq məhsulları ilə təmin olunmasına, təsərrüfatların fəaliyyətinin genişləndirilməsinə stimul olub, ailə təsərrüfatlarından bir hissəsinin isə kiçik sahibkarlıq subyektinə çevrilməsinə şərait yaradıb.

**Xəbərlər şöbəsi**

***Müstəqillik illəri ərzində doğma yurdumuz Naxçıvanın iqtisadiyyatının gücləndirilməsi istiqamətində həyata keçirilən kompleks tədbirlər öz bəhrəsini verib və bu proses ardıcıl davam etdirilir. Sosial-iqtisadi inkişafı şərtləndirən amillər içərisində ən başlıcası muxtar respublikada böyük vüsət alan quruculuq işləridir. Heç bir fərq qoymadan bütün şəhər və kənd yaşayış məntəqələrində görülən bu işlər doğma yurdumuzun simasını əsaslı surətdə dəyişir. Belə yaşayış məntəqələrindən biri də müasirləşən kəndlərin sırasına qoşulan Xələcdir.***



*Müasirləşən kəndlərimiz*

# Gözəlliyə qovuşan məkanlardan biri – *Xələc*

Kənddə baş çəkdiyimiz ilk ünvan gözəlliyi ilə gözoxşayan məktəb binasıdır. Təhsil ocağına daxil olduğumuzda xoş təəssüratımız birəbeş artır. Məktəbin direktoru Lətif Orucov deyir ki, təhsil ocağının üçmərtəbəli yeni binası 360 şagird yerlikdir. Burada 218 şagirdin təlim-tərbiyəsi ilə 29 müəllim məşğul olur. Məktəbdə 3-ü elektron lövhəli olmaqla, 22 sinif otağında, müxtəlif fənn laboratoriyalarında, idman zalında lazımi şərait yaradılıb. Məktəbin kitabxana fondunda, ümumilikdə, 4288 kitab vardır. Burada oxunması zəruri olan kitablardan ibarət guşə də yaradılıb.



Dünən

Məktəb binası



Bu gün

Xələc məktəbində uzun illər bilikli gənclər yetişdirilib. Təhsil ocağının məzunları arasında zəhmət adamları da olub, müxtəlif sahələr üzrə elmi dərəcələr almış alimlər də, gözəl qələm sahibləri də, həkim, mühəndis kimi bir çox sahələrdə çalışan insanlar da. Həmin ziyalıların və zəhmət adamlarının adı həmişə hörmətlə çəkilir, şagirdlərə nümunə göstərilir. Bu gün dövlətimizin bizim üçün yaratdığı şəraitdən bəhrələnərək gələcəyimiz olan övladlarımızı daha yaxşı yetişdirməliyik. Yaraşıqlı binası, müasir tədris şəraiti ilə ali təhsil ocağına bənzəyən bu məktəbin işıqlı, isti, elektron lövhəli siniflərində şagirdlər, şübhəsiz ki, yüksək səviyyədə təhsil almaqla gələcəkdə Vətəninə layiqli övlad olacaqlar. Ali Məclisin Sədri cənab Vasif Talıbov məktəbin açılışında demişdir: ***"...Xələc kənd tam orta məktəbindəki elektron lövhələr, laboratoriyalar, fənn kabinələri, internetə çıxışı olan kompüterlər, kitabxana imkan verir ki, müəllimlər dərsləri qavrama yolu ilə öyrətsinlər. Məktəbdə yaradılan şərait tədrisin tələblərinə cavab verən səviyyədədir. Müəllimlər də müasir texnologiyanı mənimsəməlidir. Xələc kənd tam orta məktəbində yaradılan şərait də gənclərin hərtərəfli və vətənpərvər hazırlanmasına hesablanmışdır. Bu yolda müəllim təbkarlığı və şagird çalışqanlığı öz bəhrəsini verəcəkdir".*** Biz müəllimlər bu dəyərli fikirləri rəhbər tutaraq gələcəkdə daha gözəl nailiyyətlər əldə edəcəyimizə əminik.

Təhsil ocağının tarix müəllimi Sabir Şabanov kəndin tarixindən söhbət açır, deyir ki, "Xələc" çox qədim bir toponimdir. Bu ada ilk dəfə Mahmud Kaşğarinin "Divani-lüğət it-türk" əsərində rast gəlinir. Bundan sonra əksər mənbələrdə xalac tayfa adı kimi öz əksini tapır. Bir başqa mənbədə deyilir ki, bu tayfa lap qədimlərdən Xorasanda və İraqda yaşayan türk tayfalarından biridir. Qiyasəddin Qeybullayevin tədqiqatından isə aydın olur ki, XIX-XX əsrlərdə Xələc tayfası çaparlı, qarahəsənli, ismayıllı, bəyalı, hacılar kimi tirələrə bölünərək Azərbaycanın müxtəlif ərazilərinə səpələniblər. Bu gün Azərbaycanın müxtəlif rayonlarında Xələc adlı beş kənd var. Şübhəsiz ki, oğuzlara məxsus xalac tayfasının bir qolu da Naxçıvanda məskunlaşaraq indiki kəndin əsasını qoyub. 29 mart 2005-ci il tarixdə Xələc kəndi Alışar kənd inzibati ərazi dairəsinin tərkibindən ayrılaraq həmin kənd mərkəz olmaqla, Xələc kənd inzibati ərazi vahidi yaradılıb.

Məktəbdən xoş təəssüratlarla ayrılıb kənd mərkəzinə üz tuturuq. Burada inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, rabitə evi, polis sahə və baytarlıq məntəqələri, kitabxana, feldşer-mama məntəqəsi, statistika otağı, klub, o cümlədən Yeni Azərbaycan Partiyası Xələc kənd ərazi ilk təşkilatı, arxiv və 56 yerlik iclas zalı yerləşir. Bütün təşkilatlar üçün müasir iş otaqları ayrılıb.

256 nömrə tutumlu yeni nəsil ATS Xələc kəndində 140 abonentə xidmət edir. Kənddə 44 internet istifadəçisi vardır. Yeni poçt şöbəsi də sakinlərin istifadəsinə verilib. Kənd sakini Bəxtiyar Zahirli şəraitdən razılıq edərək deyir:

– Əvvəllər kommunal xərcləri ödəmək üçün rayon mərkəzinə üz tuturduq. Artıq kənd camaatının adi bir məsələdən ötrü rayon mərkəzinə, şəhərə üz tutmaqdan yaxası qurtarıb. Bu xərcləri yerindəcə ödəyəcəyik ki, bu da işimizi asanlaşdıracaq, vaxtımıza qənaət olunacaq. İndi kənddən dünyanın istənilən nöqtəsi ilə rabitə və internet əlaqəsi qurmaq olar. Çünki kənd tamamilə telefonlaşdırılıb. Dövlət qayğısı Xələc sakinləri üçün uzaqları yaxın edib.

İnsan sağlamlığından söhbət gedəndə ilk olaraq yadımıza səhiyyə ocaqları düşür. Son illərdə muxtar respublikada bu məqsədlə inşa olunan binalar, onların təcrübəli kadrlarla, müasir texnologiyalarla təmin edilməsi dövlətimizin insan amilinə diqqət və qayğısının ifadəsidir.

Kənd mərkəzinin birinci mərtəbəsində feldşer-mama məntəqəsi üçün 3 otağın ayrılması da sakinlərin sevincinə səbəb olub. Məntəqə tibbi ləvazimatlarla təmin edilib. Burada yaradılan müasir şəraitlə tanış olur, öyrənirik ki, qeydiyyat elektron formada aparılır. Qeydiyyata alınan və müayinə olunan xəstələr haqqındakı məlumatlar, eyni zamanda buradan Şərur rayonunun səhiyyə informasiya sisteminə qoşulan kompüter vasitəsilə mərkəzə də ötürülür. Kənd sakini yaşı 70-i ötmüş Fatma nənə ilə həmsöhbət oluruq. Onun dedikləri:



Dünən

Xələc yolu



Bu gün

– Bizim gəncliyimizdə kənd yerlərində bu cür gözəl, yaraşıqlı, lazımi avadanlıq və cihazlarla təchiz edilən tibb ocağı barədə danışmaq belə, olmazdı. Bu gün kəndlərimizdə də səhiyyə ocaqlarımız üçün yeni binalar inşa edilir ki, bu da əhalinin sağlamlığının qorunmasında, onlara tibbi xidmətin göstərilməsində böyük rol oynayır. Elinin-obasının, sakinlərinin qayğısına qalan dövlət rəhbərimizi Tanrı qorusun.

Kənd mərkəzinin yaxınlığındakı binanın qarşısındakı qələbəlikdən aydın olur ki, bura yeni xidmət mərkəzidir. Bərbərxana, gözəllik salonu, dərzi, ət satışı yeri, ərzaq, sənaye və təsərrüfat malları mağazaları, eləcə də 2 anbarın yerləşdiyi xidmət mərkəzində 6 sakin işlə təmin olunub. Mağazada ərzaq və sənaye malları ilə yanaşı, kənddəki ailə təsərrüfatlarında istehsal olunan müxtəlif çeşidli məhsullar üçün ayrıca bölmə yaradılıb.

Xidmət mərkəzində İradə Qarayeva ilə həmsöhbət oluruq:

– Əvvəllər qardaş Türkiyədə yaşayırdıq. Hər dəfə yurdumuza gələndə gündən-günə gözəlləşən el-obama qayıtmaq həvəsim artırdı. Nəhayət, kəndimizdə aparılan quruculuqdan sonra burada yaradılan yeni iş yerləri haqqında yaxınlarımdan məlumat aldım. Yenidən öz eli-mə, obama qayıdıb burada işlə təmin olunduğuma çox şadam. Son illər kəndlərimizə belə qayğı göstərilməsi, burada yaşayan insanların problemləri ilə maraqlanılması, yolların abadlaşdırılıb, məktəb, tibb məntəqəsi, mədəniyyət obyektlərinin tikilməsi, su, rabitə xətti çəkilməsi kəndlərimizin daha da böyüməsinə səbəb olur. Həmin yeni obyektlərin istifadəyə verilməsi əhalinin məşğulluq problemlərinin həllinə müsbət təsir göstərməklə yanaşı, kənd sakinlərinin vaxt itkisinə yol verməmədən və əlavə vəsait xərcləmədən çətinliklərinin həllində mühüm rol oynayıb.

Onu da bildirək ki, muxtar respublikamızda geniş vüsət almış quruculuq tədbirləri sırasında yeni yolların çəkilişi, körpülərin salınması da diqqət mərkəzində saxlanılır. Xüsusən də ucqar dağ və sərhəd yaşayış məntəqələrimizə gedən yollar bu gün öz rahatlığı ilə seçilir. Yol iqtisadiyyat, mədəniyyətdir.

Yengicə-Xələc-Çomaxtur kənd avtomobil yolunun istifadəyə verilməsi də kənd sakinlərinin böyük sevincinə səbəb olub. İndi bu yol da bölgənin ən yaxşı yollarından biri sayılır. Yol genişləndirilib, əsaslı şəkildə yenidən qurulub. Sükan arxasında əyləşən kənd sakini Nizaməddin Allahverdiyev göstərilən qayğıya görə minnətdarlıq edir və deyir ki, yolların belə abadlaşdırılması təqdirəlayiqdir. El arasında belə bir məsəl var: – Abad el yolundan bilinər. Bu gün biz kənd adamlarına yaradılan şərait şəhərdən seçilmir. Əvvəllər rayon mərkəzinə getmək üçün vaxt sərf edir, üstəlik, kələ-kötür yolda maşınlarımız da nasaz vəziyyətə düşürdü. İndi şükür Allaha, yollarımız şüşə kimidir.

Kənd sakini, ailə təsərrüfatı başçısı Sərxan Mehdiyevlə də həmsöhbət oluruq:

– Torpağa bağlanmaq, onun qayğısını çəkmək kəndlinin xoş güzəranının təminatıdır. Ona görə də xələclilər bu əvəzsiz nemətdən ikiəlli yapışıblar, onun qədrini bilir və bəhrəsini görürlər. Məşğul olduğum heyvandarlığın da inkişafı üçün kənddə geniş imkanlar mövcuddur. Elə bu amil də nəzərə alınaraq aqrar islahatlar vaxtı yaşayış məntəqəsində kifayət qədər biçənək və örüş sahəsi ayrılıb. Biz də öhdəmizdə olan mal-heyvanın baş sayını ilbəil artırmaqla təsərrüfatımızı genişləndiririk. Bol-bərəkətli süfrələrimizdən heç vaxt təzə ət və süd məhsulları əskik olmur, üstəlik, daxili bazarın da həmin məhsullara tələbatının ödənilməsinə kömək edirik.

Kənd ağsaqqalı Cəmşid Həsənov deyir:

– Aqrar islahatlar həyata keçirildikdən, torpaqlar camaata paylandıqdan sonra texnika, təsərrüfat suyu, keyfiyyətli toxum və təchizat məsələləri həll edilib, hər hektar taxıl sahəsi üçün dövlətdən pul yardımı və mineral gübrə alırıq. Odur ki, bu sahəyə marağımız ildən-ilə artır. Tədarük etdiyimiz məhsullar öz tələbatımızı ödəyir, qalanını da dükan-bazarda, satış yarmarkalarında rahatca satırıq. İndi kənd adamlarının zəhmət çəkməsi, torpağa alın təri axıtması, ilk növbədə, özləri üçündür. Kim bunu dərindən dərk edirsə, yaxşı gün-güzəran qurmağı bacarır. Bu yurd yerində həyat tərzimizi, yaşayışımızı qurmaq üçün dövlətimiz tərəfindən kənd adamlarına göstərilən yüksək diqqət və qayğıya görə ölkə Prezidentinə və muxtar respublika rəhbərinə dərin minnətdarlığımı bildirirəm.

*Xələcdə hamının gözlərində gələcəyə ümid, üzlərində təbəssüm, minnətdarlıq ifadəsi var idi. Bütün bunları gördükdən sonra bir daha əmin olduq ki, digər yaşayış məntəqələrimiz kimi, bu kəndin adamları da yaradılan şəraitdən maksimum bəhrələnirlər.*

✍ **Ramiyyə ƏKBƏROVA**

# Teleradio sahəsində keyfiyyətin yüksəldilməsi diqqət mərkəzindədir

*2019-cu ilin noyabr və dekabr ayları ərzində Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Şurası muxtar respublikada yayımlanan telekanalların fəaliyyətini izləmiş, təhlillər apararaq aidiyyəti üzrə məlumat vermişdir.*

Bəhs edilən dövrdə şura rüblük monitorinqlər hazırlayarkən mətbuat xidmətlərinin fəaliyyətini təhlil etmiş, muxtar respublikanın kütləvi informasiya vasitələri ilə dövlət orqanlarının mətbuat xidmətlərinin qarşılıqlı əməkdaşlığına dair hesabatlar hazırlamışdır.

Şura muxtar respublikada fəaliyyət göstərən teleradiolarla texniki və yaradıcılıq baxımından keyfiyyətin yüksəldilməsinə xüsusi diqqət göstərməklə yanaşı, həm də teleradioların monitorinqini aparır. Noyabr ayından şura tərəfindən müxtəlif tematik istiqamətlər üzrə monitorinqlərin aparılmasına başlanılmış, dekabr ayında bu iş davam etdirilmişdir. Bununla əlaqədar Naxçıvan Dövlət Televiziyasında və Radiosunda, "Kanal 35" televiziyası və "Naxçıvanın səsi" radiosunda ədəbi-bədii verilişlərin hazırlanması ilə bağlı monitorinq aparılmışdır.

Tədbirlər planına uyğun olaraq şura sosial şəbəkələrdə Naxçıvanla bağlı yayılan məlumatların təhlilini də aparmış, muxtar respublikanın zəngin tarixi-mədəni irsi və müasir inkişafı ilə bağlı video və fotomateriallarının yayılmasına yaxından iştirak etmişdir. Bəhs edilən dövrdə şura Naxçıvanla bağlı 100-dən çox foto və video paylaşmışdır.

Şura tərəfindən həmin dövrdə sosial-iqtisadi, mədəniyyət, elm və təhsil sahələrində Naxçıvan Muxtar Respublikasında əldə edilən nailiyyətlər, burada aparılan infrastruktur quruculuğu, diyarımızın qədim tarixi abidələri, zəngin turizm potensialı ilə bağlı məlumatlar xarici mətbuat orqanlarında 22 məqalə və reportaj yerləşdirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası***

# Bəhruz Kəngərli şəxsiyyəti və sənət irsi vətənpərvərlik nümunəsi kimi təbliğ olunur



***Muzeylər mədəniyyət, elmi-tədqiqat və təbliğat müəssisələri kimi tarixi-mədəni irsi toplayır, öyrənir və mühafizə edir. Bununla da əhalinin mədəni şüur səviyyəsinin yüksəlməsinə, cəmiyyətin mənəvi inkişafına, bütövlükdə, dövlətin tərəqqisinə çalışırlar. Muzeylərin yaranma tarixinin eramızdan əvvələ təsadüf etdiyini nəzərə alsaq, belə mədəniyyət müəssisələrinin inkişaf yolunu da göz önünə gətirmiş olarıq.***





Azərbaycanda muzey işinin inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Əgər 1969-cu ilədək ölkəmizdə 29 muzey fəaliyyət göstərirdisə, ulu öndərin hakimiyyəti illərində Azərbaycanda 111 müxtəlif profilli muzey yaradılıb. Hazırda onların sayı 200-dən çoxdur.

Muxtar respublikamızda da dövlətin və millətin maddi və mənəvi sərvətinin toplanması, qorunması, təbliğ olunması və gələcək nəsillərə çatdırılması işi diqqət mərkəzində saxlanılır. Fəaliyyət göstərən hər bir muzey və muzey əməkdaşları Vətənə, dövlətə, xalqa xidmət kimi tarixi vəzifələrini dərk edir, bu işin öhdəsindən məsuliyyətlə gəlməyə çalışırlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2001-ci il 22 may tarixli Sərəncamı ilə yaradılan Bəhruz Kəngərli Muzeyi XX əsrin əvvəllərində baş verən tarixi, ictimai-siyasi hadisələri təsviri sənətin qüdrəti ilə özündə əks etdirən mədəniyyət ocaqlarındandır. Belə ki, muzeydə qorunan və nümayiş etdirilən Bəhruz Kəngərlinin “Qaçqınlar” portret silsiləsi, həmçinin rəssamın yaratmış olduğu etnoqrafik rəsm əsərləri xalqımızın milli mədəni sərvəti, qiymətli sənət əsərləridir. Ümummilli lider Heydər Əliyevin açılışında şəxsən iştirak edərək xeyir-dua verdiyi bu muzey hərtərəfli dövlət qayğısından yararlanaraq fəaliyyətini günün tələbləri səviyyəsində qurmağa çalışır.

Onu da qeyd edək ki, artıq muzeylərə yeni baxış formalaşıb, muzey işinə innovativ yanaşma gözə çarpır. Bir çox dünya muzeyləri mədəni fəaliyyətin yeni növ və formalarını axtarır və inkişaf etdirirlər. Dünya muzeylərinin təcrübəsində interaktiv oyunlardan, viktorinalardan, səhnəciklərdən, müxtəlif profilli sərgilərdən, tarixi və əlamətdar günlərlə bağlı açıq dərslərdən geniş istifadə olunur. Bu mənada, muxtar respublikamızdakı muzeylər şəbəkəsi tamamilə dünya standartlarına cavab verir.

Kompüter texnikasının və internetin inkişafı ilə diyarımızda da muzey sahəsində yeniliklər yaranıb. Məsələn, bu gün dünyada virtual muzeylər fəaliyyət göstərir. Bu da uğurlu muzey layihələrindən biridir. Zamanın tələbindən yaranıb özünü doğruldan bu yeniliklərin tətbiqi məqsədilə Bəhruz Kəngərli Muzeyinin *behruzkengerli.nakhchivan.az* saytında da virtual səyahət bölməsi yaradılıb. Həmin bölməyə daxil olan bütün izləyicilər dünyanın istənilən yerindən bu mədəniyyət müəssisəsi ilə virtual tanış ola bilərlər.

Muzeylər xalqın milli-mənəvi dəyərlərini gələcək nəsillərə ötürməklə bərabər, həm də maarifləndirici və tərbiyəedici kimi funksiyaların daşıyıcısıdır. Bu mədəniyyət ocaqları insanlarda milli-mənəvi dəyərlərə sədaqət, Vətənə məhəbbət, onun tarixinə, adət-ənənələrinə hörmət hissləri aşılayır. Muzeylərdə keçirilən mədəni-kütləvi tədbirlər isə bu işlərə təkan verir.

Muzey xüsusi elm, tədris mühitidir. Bu mədəniyyət ocaqlarının əsas missiyalarından biri onun tədris fəaliyyətidir. Müdriklər deyiblər ki, ağıllı valideyn kapitalı övladına qoyur. Yəni onun təhsilinə, tərbiyəsinə, ümumən, səviyyəsinin yüksəldilməsinə sərf edir. Bu gün dövlətimiz də bu mühüm məramı bir valideyn həssaslığı və qayğısı ilə layiqincə icra edir. Muxtar respublikada milli dəyərlərimizin yaşadılması, mədəni irsimizin təbliği istiqamətində görülən çoxşaxəli işlər sırasında ayrı-ayrı görkəmli sənətkarların həyat və yaradıcılığının gənc nəslə təqdim olunması başlıca yer tutur.

Görkəmli fırça ustası Bəhruz Kəngərlinin anadan olmasının 120 illik yubileyi ilə əlaqədar tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***“Bəhruz Kəngərli irsi, onun xalqımız, Vətənimiz qarşısındakı xidmətləri daim təbliğ olunmalı, muzeydən həm də muzey-məktəb kimi istifadə edilməlidir... Muzeydə dərslər təşkil olunmalı, rəssamın irsi və həyat yolu gənc nəsillərə olduğu kimi çatdırılmalıdır. Çünki bu cür sənətkarların həyat və yaradıcılığı gənc nəsillər üçün nümunədir”.***

Bu gün Naxçıvanda həyata keçirilən maarifləndirmə siyasəti və bu siyasətin nəticəsi olaraq muzeylərdə distant və açıq dərslərin keçilməsi gənc nəslin dünyagörüşünün formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Əgər bu gün şagirdlər muzeylərdə istər tariximiz, istərsə də ədəbiyyatımız, incəsənətimiz ilə bağlı nə isə öyrənə bilirlərsə, bəhrələnirlərsə, bu, gələcəyin milli ziyalısının yetişdirilməsi istiqamətində mühüm addım deməkdir. Eyni zamanda illər sonra Vətənə və xalqına qulluq edəcək kadrın zəngin dünyagörüşünün təməlinin bu gün möhkəm qoyulması deməkdir.

Bəhruz Kəngərli Muzeyi ilə əlaqədə şagirdlərdə milli dəyərlərimizə bağlılıq yaradır, o bağı möhkəmləndirir, şagirdlərin milli şüurunu formalaşdırır. Onlarda şəxsiyyət, zövq, düşüncə tərzi formalaşır. Məktəblilər əyani surətdə gördükləri bir rəsm əsərinə, tarixi bir əşyaya öz düşüncə tərzi ilə yanaşırlar. Muxtar respublikada gələcək nəsillərin daha da dünyagörüşlü, məntiqli, millətpərvər böyümələri, sərbəst fikrə sahiblənmələri, cəsarətli olmaları və öz düşüncə tərzlərini irəli sürmələri üçün muzeylərdə açıq dərs ənənəsinə xüsusi önəm verilir. Muzey ekspozisiyası şagirdlərə emosional təsir göstərir, onları mənən inkişaf etdirir. Bu proses həm də uşaqlara mənəvi tərəqqiyə təkan verir, tarixi yaddaşı möhkəmləndirir. Bu mənada, açıq dərslərə cəmiyyəti düzgün istiqamətləndirməyə xidmət edən ideoloji bir proses kimi baxmaq lazımdır. Belə dərslər muxtar respublikamızda təhsil siyasətinin ayrılmaz tərkib hissəsidir. Bəhruz Kəngərli Muzeyinin əməkdaşları da bunu dərindən dərk edərək açıq dərslərin səmərəli təşkilinə məsuliyyətlə yanaşırlar.

Vətənpərvərlik hər bir insanın əməlləri ilə ölçülür. Bəhruz Kəngərli də əsl vətəndaş kimi Vətənlə bağlı heç bir hadisəyə laqeyd qalmayıb. O gah vətəndaşlıq mətanəti göstərərək “Qaçqınlar” portret silsiləsini yaratmaqla tarixin ağrı-acılarını gələcək nəsillərə ötürüb, gah yurdunun gözəl təbiətini böyük məhəbbətlə tərənnüm edib, gah da çoxəsrlik keçmişdən yadigar qalan tarix və mədəniyyət abidələrinə öz ehtiramını bildirib. Bununla da xalqın tarixini, mədəniyyətini, sənətkarlıq qabiliyyətini vəsf edib.





Bəhruz Kəngərli yaradıcılığının ana xəttini milli təəssübkeşlik təşkil edir. Görkəmli realist rəssamın mövzusundan asılı olmayaraq, bütün əsərlərində milli təəssübkeşlik özünü açıq-aydın büruzə verir. Məlumdur ki, Bəhruz Kəngərli çox zəngin portret qalereyası yaradıb. Bir çox müasirlərinin portretlərini çəkib, hətta bu istiqamətdə sifarişlər qəbul edib. Tanınmış fırça ustasının muzeydə də sərgilənən “Qaçqınlar” silsiləsinə daxil olan əsərlərinə isə qətiyyən adi portret kimi yanaşmaq olmaz. Bu əsərləri rəssam bütöv bir xalqın həqiqətlərini var qüvvəsi ilə hayqıraraq gələcək nəsillərə ötürmək məqsədilə, özü də böyük vətənpərvərlik yanğısı ilə yaradıb.

Bəhruz Kəngərli muzey ekspozisiyasında da xüsusi maraqdoğuran “Qaçqınlar” silsiləsində bu gün Ermənistan adlandırılan, əsl həqiqətdə isə qədim Azərbaycan torpağı olan Qərbi Azərbaycandan – öz doğma yurdlarından mənfur ermənilər tərəfindən didərgin salındıqları üçün Naxçıvana pənah gətirmiş insanları – qaçqınları təsvir edib. Bu, baş verən ədalətsizliyə qarşı bir sənətkar – vətəndaş, ziyalı etirazıdır. Həmin əsərlərdəki insanlar nə qədər məğrurdurlar. Hüzn, kədər, iztirab bu portretlərin qəhrəmanlarının simasında mükəmməl şəkildə təsvir olunub. “Canfəda kəndindən qaçqın oğlan”, “Yaycı kəndindən qaçqın oğlan Cümşün”, “Avşar kəndindən qaçqın qız”, “İki qaçqın qız”, “Ağ ləçəkli qaçqın qız” əsərlərindəki kədər fərdi kədər deyil, ümumxalq kədəridir. Bu insanlar qəmli ola bilərlər, çünki onlar torpaq itiriblər, yurd itiriblər. Lakin nə qədər də məğrur tuturlar özlərini. Ekspozisiyadakı bu əsərləri seyr etdikcə bir daha düşünürsən: rəssamın peşəkarlığıdır ki, bu insanların daxili sarsıntılarını təsvir edə bilib bu portretlərdə, onların simasına hopan təlatümlü daxili aləmlərini göstərə bilib. Rəssam “Ayaqyalın qadın”, “Qaçqınlar”, “Əyləşmiş qaçqın oğlan”, “Qaçqın İmran çanta ilə”, “Qaçqınlar arabada” əsərlərini yaratmaqla bir amala xidmət edib. Bu da ondan ibarətdir ki, vətənpərvər rəssam kimi tarixi həqiqətləri gələcək nəsillərə çatdırsın, əsərlərini sübut olaraq tarixi sənəd kimi ortaya qoysun. Bu baxımdan rəssamın sənət ideyaları bir maarifpərvər, vətənpərvər ziyalı uzaqgörənliyi kimi dəyərlidir. Bir faktı da qeyd etmək yerinə düşər ki, həmin əsərlərdən rəssam pul qazanmayıb. Bəhruz Kəngərli fırçasını silaha çevirərək tarixi ədalətsizliyə qarşı üsyan edirdi. Əsl Vətən oğlu adlandırılmağa layiq olan görkəmli rəssamımız çox gözəl anlayırdı ki, hər bir vətəndaşın ilk vəzifəsi xalqının, millətinin istiqbalıdır. Rəssam bütün varlığı, milli təfəkkürü ilə düşünürdü ki, Vətənin dərdinə biganə qalmaq olmaz, çünki biganəlik milləti çökdürər. Bəhruz Kəngərlinin yaradıcılığına daha yaxından bələd olduqca insanı bir sual düşündürür: – Bəs biz Bəhruz Kəngərlinin vətənpərvərliyindən dərs götürə bilirikmi?

Adını bu gün fəxarətlə çəkdiyimiz milli ruhlu sənətkarımız yaşadığı qısa ömründə vətənpərvərliyin ən gözəl nümunəsini nümayiş etdirib. Bu vətənpərvərlik duyğusu muzey əməkdaşlarının fitrətinə hopub, muzeyin fəaliyyətinə yansıyıb. Xalqımızın millətpərvər oğlunun adına layiq keçirilən hər bir mədəni-kütləvi tədbirin ana xəttini millilik və vətənpərvərlik təşkil edir, rəssamın Vətən sevgisi hər kəsə nümunədir.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən muzey işində peşə vərdişləri formalaşdırılması məqsədilə fond mühafizləri, bələdçilər üçün mütəmadi olaraq keçilən təkmilləşdirmə kursları, seminar-treninqlərdə, təşkil olunan dəyirmi masalarda Bəhruz Kəngərli Muzeyinin əməkdaşları da fəal iştirak edirlər. Diyarımızda muzey işi sahəsində istər düzgün kadr siyasətinin aparılması, istərsə də peşəkarlığın artırılması istiqamətində görülən bu tədbirlər muxtar respublikada muzeyşünaslığın inkişafına sanballı töhfələrini verməklə yanaşı, kollektivimizi də mədəni irsimizin daha dolğun, planlı şəkildə təbliğinə səfərbər olmağa sövq edir.***

**Səbinə ƏLİNCƏLİ**

***Bəhruz Kəngərli Muzeyinin direktoru***

## “Nuh torpağının rəssamı” adlı tədbir



***Bəhruz Kəngərli Muzeyində realist fırça ustasının anadan olmasının 128-ci ildönümünə həsr olunmuş “Nuh torpağının rəssamı” adlı tədbir keçirilib.***

Tədbirdə muzeyin direktoru Səbinə Əlincəli Azərbaycan rəssamlığına əvəzsiz xidmətlər göstərmiş görkəmli sənətkarın çox zəngin və mövzu etibarilə əhatəli yaradıcılığına nəzər salıb, böyük rəssamın irsinə göstərilən diqqət və qayğıdan söhbət açıb.

Bildirilib ki, istedadlı sənətkarın yaradıcılığını Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev həmişə yüksək qiymətləndirib. Naxçıvan şəhərində Bəhruz Kəngərli Muzeyinin, görkəmli sənətkarın adını daşıyan Rəssamlar Parkının yaradılması, parkda abidəsinin ucaldılması, 2012-ci ildə rəssamın 120 illik yubileyinin qeyd olunması görkəmli sənətkarın irsinə göstərilən diqqətin, muxtar respublikada rəssamlıq sənətinə verilən yüksək dəyərin ifadəsidir.

Vurğulanıb ki, Bəhruz Kəngərlinin çox zəngin və mövzu etibarilə əhatəli yaradıcılığı gənc nəsillər üçün örnəkdir. Böyük rəssamın vətənpərvərliyinin ifadəsidir ki, onun ustalıqla yaratdığı əsərlər Bəhruz Kəngərlini incəsənət tariximizin unudulmayan nümayəndəsinə çevirib.

Tədbirdə Azərbaycan Respublikasının Xalq rəssamı Hüseynqulu Əliyev, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Həbibə Allahverdiyeva çıxış edərək Bəhruz Kəngərli ənənələrinin naxçıvanlı rəssamların yaradıcılığındakı mühüm rolundan, görkəmli sənətkarın irsinin təbliğindən danışıblar.

Sonda realist rəssamın əsərlərindən ibarət ekspozisiyaya baxış olub.

**Güntac ŞAHMƏMMƏDLİ**

Parlament seçkiləri – 2020

# Seçki marafonu

**9 fevral 2020-ci il Azərbaycan Respublikası Milli Məclisinə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinə növbədənkənar seçkilər günüdür.**

### Qeydə alınmış namizədlərin bərabərliyi

***Qeydə alınmış bütün namizədlər bərabər hüquqa malikdirlər və bərabər vəzifələr daşıyırlar.***

– Dövlət orqanlarında işləyən və ya bələdiyyə qulluğunda olan, həmçinin kütləvi informasiya vasitələrində əmək və mülki hüquq müqaviləsi əsasında işləyən qeydə alınmış namizədlər seçki kampaniyasında iştirak etdikləri müddətdə xidməti vəzifələrini yerinə yetirməkdən azad olunurlar (bu qayda Azərbaycan Respublikası Prezidentinə, Azərbaycan Respublikası Milli Məclisinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarına və bələdiyyə üzvlərinə şamil edilmir), müvafiq əmrin (sərəncamın) təsdiq edilmiş surətini qeydiyyat günündən ən geci 3 gün ərzində onları qeydə almış seçki komissiyasına təqdim edirlər; onlar öz vəzifə və xidməti mövqeyindən imtiyaz qazanmaq və üstünlük əldə etmək məqsədilə istifadə edə bilməzlər.

**Dövlət vəzifələrində olan qeydə alınmış namizədlər, həmçinin bələdiyyə vəzifələrində olan qeydə alınmış namizədlər öz vəzifə mövqelərindən üstünlük əldə etmək üçün istifadə edə bilməzlər**

– Vəzifə və xidməti mövqedən üstünlük əldə etmək məqsədilə istifadə olunması nəticəsində bərabərlik prinsiplərinin pozulması halları Seçki Məcəlləsinin 55.2-ci və “Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 51.2-ci maddəsi ilə müəyyənləşdirilir.

***Dövlət vəzifələrində olan qeydə alınmış namizədlərin yalnız öz vəzifələrini icra etməkdən azad olunduğu vaxtda seçkiqabağı təşviqat aparmaq hüququ vardır.***

– Vəzifəli şəxslər, teleradio verilişləri və kütləvi informasiya vasitələri redaksiyalarında işləyən jurnalistlər və yaradıcı işçilər qeydə alınmış namizəddirlərsə, yaxud qeydə alınmış namizədlərin və siyasi partiyaların vəkil edilmiş şəxsləri və ya səlahiyyətli nümayəndələridirsə, seçkilərin gedişinin kütləvi informasiya vasitələri ilə işıqlandırılmasında iştirak etmək onlara qadağan edilir.

***Yuxarıda qeyd edilən məhdudiyyətlərə əməl edilməsi Azərbaycan Respublikası Milli Məclisinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarına seçicilər qarşısında səlahiyyətlərini və vəzifələrini yerinə yetirməkdə mane olmamalıdır.***

– Qeydə alınmış namizədlər, siyasi partiyalar, siyasi partiyaların vəkil edilmiş şəxsləri və səlahiyyətli nümayəndələri, qeydə alınmış namizədlərin vəkil edilmiş şəxsləri xeyriyyə fəaliyyəti ilə məşğul ola bilməzlər.

– Qeydə alınmış namizədlər, siyasi partiyalar, siyasi partiyaların vəkil edilmiş şəxsləri və səlahiyyətli nümayəndələri, qeydə alınmış namizədlərin vəkil edilmiş şəxsləri, göstərilən şəxslərin təsisçisi, sahibi, üzvü və ya işçisi olduğu təşkilatlar, göstərilən şəxslərin və ya təşkilatların tapşırığı ilə hərəkət edən digər fiziki və hüquqi şəxslər xeyriyyə fəaliyyəti ilə məşğul ola bilməzlər. Göstərilən şəxslərin və təşkilatların fiziki və hüquqi şəxslərə, seçicilərə maddi və maliyyə, yaxud digər xidmətlər göstərmək təklifi ilə müraciət etməsi qadağandır. Namizədlərin, qeydə alınmış namizədlərin, siyasi partiyanın, onların səlahiyyətli nümayəndələrinin və vəkil edilmiş şəxslərinin adından və onların müdafiəsi üçün fiziki və hüquqi şəxslərin xeyriyyə fəaliyyəti ilə məşğul olması qadağandır.

### Qeydə alınmış namizədin fəaliyyətinin təminatları

– Qeydə alınmış namizədin işlədiyi, qulluq etdiyi, oxuduğu, hərbi xidmətdə olduğu və ya hərbi xidmət keçdiyi dövlət orqanının, idarəsinin, təşkilatının və ya bələdiyyə orqanının, təşkilatının müdiriyyəti, hərbi hissənin komandiri müvafiq seçki komissiyasında namizədin qeydə alındığı gündən seçkilərin nəticələrinin rəsmi dərc edildiyi günədək ərizəsində və ya raportunda göstərilən müddət üçün onu işdən, tədrisdən, xidmətdən ödənilməyən məzuniyyət verilməsi əsasında istənilən gün və vaxt azad etməlidir.

– Seçki qanunvericiliyində göstərilən müddətdə qeydə alınmış namizəd dövlət orqanının, idarəsinin, təşkilatının və ya bələdiyyə orqanının, təşkilatının onların vəzifəli şəxslərinin təşəbbüsü ilə işdən, xidmətdən, təhsil müəssisəsindən çıxarıla bilməz və ya razılığı olmadan başqa işə, başqa yerdə işləməyə (oxumağa, xidmət keçməyə) keçirilə bilməz, habelə ezamiyyətə göndərilə bilməz, hərbi xidmətə və ya toplanışa çağırıla bilməz. Qeydə alınmış namizədin seçkilərdə iştirakı müddəti, qeydə alındığı gündən başlayaraq işlədiyi ixtisas üzrə əmək stajına daxil edilir.

– Qeydə alınmış namizəd seçki qanunvericiliyində göstərilən müddətdə müvafiq prokurorun razılığı olmadan, namizəd kimi qeydə alındıqdan sonra törətdiyi əməllərə görə cinayət məsuliyyətinə cəlb edilə bilməz, tutula bilməz və məhkəmə qaydasında müəyyənləşdirilən inzibati tənbeh tədbirlərinə məruz qala bilməz.

**Qeydə alınmış namizəd cinayət başında yaxalanarsa, tutula bilər. Belə razılıq verildikdə və ya qərar qəbul edildikdə, müvafiq prokuror və ya məhkəmə namizədin qeydə alındığı seçki komissiyasını bu barədə dərhal xəbərdar edir.**

– Qeydə alınmış namizəd və siyasi partiyanın səlahiyyətli nümayəndəsi müvafiq dairə seçki komissiyasından hüdudları, ünvanı və telefonları göstərilməklə seçki məntəqələrinin, məntəqə seçki komissiyalarının siyahısını və səsvermə yerlərinin ünvanlarını ala bilər.

– Qeydə alınmış namizəd dövlət orqanının, idarəsinin, təşkilatının və ya bələdiyyə orqanının, təşkilatının seçki komissiyasının hərəkəti (hərəkətsizliyi) nəticəsində ona dəymiş zərərin ödənilməsi məqsədilə Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq məhkəməyə müraciət edə bilər.

### Qeydə alınmış namizədin seçkilərdə iştirakının şərtləri

***Seçkilərdə iştirak edən qeydə alınmış namizəd Azərbaycan Respublikası Seçki Məcəlləsinin 2.6-cı və “Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 2.4-cü maddəsində göstərilən şərtlərlə yanaşı, aşağıdakı şərtlərə riayət etməlidir:***

– Qeydə alınmış digər namizədlərin seçki kampaniyası zamanı öz siyasi ideyalarını və baxışlarını azad və sərbəst yaymaq hüququna hörmət bəsləmək;

– Qeydə alınmış digər namizədlərin, siyasi partiyaların, seçicilərin və ictimai təşkilatların hüquqlarına hörmət bəsləmək;

– Seçicilərlə azad ünsiyyətin yaradılmasında qeydə alınmış digər namizədlərə mane olmamaq.

### Namizədin namizədlik statusundan imtina etməsi

– İrəli sürülmüş namizəd müvafiq seçki komissiyasını yazılı şəkildə xəbərdar edərək, namizəd olmağa razılığı barədə ərizəsini istənilən vaxt geri götürə bilər. Bu cür yazılı xəbərdarlıq geri götürülmür.

– Qeydə alınmış namizəd səsvermə gününə azı 10 gün qalmış müvafiq seçki komissiyasına yazılı ərizə verərək namizədliyini geri götürə bilər. Belə ərizə geri götürülə bilməz. Daxil olmuş ərizə əsasında müvafiq seçki komissiyası ərizə vermiş namizədin qeydiyyatının ləğvi barədə 1 gün müddətində qərar qəbul edir.

– Qeydə alınmış namizədin öz namizədliyini geri götürməsinə məcburedici əsas, habelə siyasi partiyanın qeydə alınmış namizədini geri çağırmasına məcburedici əsas dedikdə, qeydə alınmış namizədin məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan hesab edilərək Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulan müvafiq tibbi ekspertiza orqanı tərəfindən təsdiqlənmiş ağır xəstəliyi və ya iştirakını mümkünsüz edən səbəblər nəticəsində namizədin seçki kampaniyası dövründə sağlamlığının pozulması başa düşülür.

– Namizədin öz namizədliyini geri götürməsi haqqında məlumat mərkəzi, dairə və məntəqə seçki komissiyalarının Azərbaycan Respublikası Seçki Məcəlləsinin 98.3-cü və “Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 85.3-cü maddəsində nəzərdə tutulan məlumat lövhələrində yerləşdirilir.

### Vəkil edilmiş şəxslər

– Qeydə alınmış namizədin və namizədi qeydə alınmış siyasi partiyanın vəkil edilmiş şəxs təyin etmək hüququ vardır. Göstərilən şəxslər namizədi qeydə almış müvafiq seçki komissiyası tərəfindən qeydə alınır. Vəkil edilmiş şəxslərinin təyin edilməsi barədə namizədin yazılı ərizəsinin və ya siyasi partiyanın təqdimatının, habelə vətəndaşın vəkil edilmiş şəxs olmaq barədə razılıq ərizəsinin daxil olduğu gündən başlayaraq 3 gün müddətində vəkil edilmiş şəxslər qeydə alınırlar. Ərizədə və ya təqdimatda vəkil edilmiş hər bir şəxsin soyadı, adı, atasının adı, doğum tarixi, əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü), yaşayış yerinin ünvanı, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi göstərilməlidir.

– Vəkil edilmiş şəxslər müvafiq seçki komissiyasından lövhəcik alırlar.

– Vəkil edilmiş şəxs qeydə alınmış namizədin seçilməsi ilə bağlı təşviqat aparır və digər bu cür fəaliyyətlə məşğul olur. Vəkil edilmiş şəxs müşahidəçi hüququna malikdir.

– Qeydə alınmış namizəd və siyasi partiya, müvafiq seçki komissiyasını xəbərdar etməklə, vəkil etdikləri şəxsi istənilən vaxt geri çağıra bilər və onların əvəzinə başqalarını təyin edə bilərlər. Belə xəbərdarlıq olduqda seçki komissiyası geri çağırılan vəkil edilmiş şəxsin vəsiqəsini ləğv edir. Vəkil edilmiş şəxs qeydə alınmış namizədi, habelə siyasi partiyanı xəbərdar etməklə, ona verilmiş vəsiqəni istənilən vaxt öz təşəbbüsü ilə müvafiq seçki komissiyasına qaytararaq öz səlahiyyətlərindən imtina edə bilər.

– Vəkil edilmiş şəxslərin səlahiyyətləri müvafiq seçki komissiyasının onları qeydə aldığı gündən başlanır və seçkilərin ümumi nəticələrinin rəsmi dərc edilməsi günündən gec olmayaraq, habelə seçki qanunvericiliyinin pozulması barədə şikayət üzrə məhkəmə araşdırması gedirsə, məhkəmənin yekun qərarının qəbul edilməsi günündən gec olmayaraq, seçki qanunvericiliyində göstərilən hallar istisna edilməklə, təmsil etdikləri namizədlərin statusunun itirilməsi ilə başa çatır.

**Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının mətbuat xidməti**

## İdman federasiyalarında ötən ilin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş yığıncaqlar keçirilib



*Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyasında ötən ilin yekunları və qarşıda duran vəzifələrlə bağlı yığıncaq keçirilib.*

Yığıncağı giriş sözü ilə açan federasiya sədri Rövşən Məmmədov qeyd edib ki, 2019-cu ildə idmançılar 3 beynəlxalq, 3 ölkə, 3 muxtar respublika əhəmiyyətli və 13 rayon birinciliyində öz güclərini sınayıblar. Ötən il ərzində federasiyanın tərkibində “Rabitəçi” və “Marafon” idman klubları da daxil olmaqla, 84 qrup fəaliyyət göstərib. Qrup məşqlərində və yarışlarda iştirak edən idmançıların sayı 1208 nəfər olub ki, bunların 579-nu qızlar, 639-nu isə oğlanlar təşkil edib.

Diqqətə çatdırılıb ki, Gənclər və İdman Nazirliyi tərəfindən federasiyanın idmançısı Əmrah Nağıyevə “İlin ən yaxşı idmançısı” mükafatı təqdim edilib. Uğurlarla yanaşı, federasiyanın işində nöqsanlar da az deyil, bu nöqsanların aradan qaldırılması istiqamətində işlər gücləndirilməlidir.

Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri Azad Cabbarov çıxış edərək bildirib ki, muxtar respublikada gənclərin idmana cəlbi, onlara sağlam həyat tərzinin aşılanması diqqət mərkəzində saxlanılır. Yüngül Atletika Federasiyası da 2019-cu ildə öz işini verilmiş tapşırıqlara əsasən qurub. Muxtar respublikada bu idman növünün inkişafı üçün yaradılan şəraitin nəticəsidir ki, artıq bu gün Naxçıvanda yüngül atletikanın 244 qrupu fəaliyyət göstərir ki, bu qruplarda 3508 nəfər idmanın bu növü ilə məşğul olur. Geridə qoyduğumuz ildə federasiya idmançıları ölkə və beynəlxalq səviyyəli yarışlarda 10 medal qazanıblar.

Gənclər və İdman naziri çıxışının sonunda idmanın inkişafına göstərdiyi diqqət və qayğıya, yaradılan şəraitə görə muxtar respublika rəhbərinə minnətdarlığını bildirib.

Sonra çıxışlar olub.

Basketbol Federasiyasında keçirilən yığıncaqda çıxış edən federasiyanın sədr müavini Turan Həsənov qeyd edib ki, ölkəmizdə digər sahələrin uğurlu inkişafı ilə yanaşı, basketbol idman növünə də xüsusi önəm verilir. Muxtar respublikanın rayonlarında və Naxçıvan şəhərində üç qrupdan ibarət 10 oğlan komandası və Ordubad şəhərində, Culfa rayonunun Yaycı kəndində 2 qız komandası olmaqla, ümumilikdə, 12 komanda fəaliyyət göstərir. Ötən il federasiyanın nümayəndələri şəhər və rayonlarda məşqçilərin fəaliyyəti ilə mütəmadi maraqlanıb, idmançıların tələb və təklifləri dinlənilib, qruplar idman ləvazimatları ilə təmin ediliblər. Hazırda həmin qruplarda 200-dən artıq idmançı idmanın bu növü ilə məşğul olur.

Vurğulanıb ki, cari ilin fevral ayından Naxçıvan şəhərində qızlardan ibarət daha bir komanda fəaliyyətə başlayacaqdır. Verilən tapşırıqlara əsasən Basketbol Federasiyası



idmanın bu növünün inkişaf etdirilməsi, yeniyetmə və gənclərin idmana cəlb olunması və yarışların kütləviliyinin artırılmasını daim diqqətdə saxlayacaq.

Yığıncaqda çıxış edən Gənclər və İdman nazirinin müavini Məcid Seyidov vurğulayıb ki, Basketbol Federasiyası 2019-cu ildə öz işini verilmiş tapşırıqlara əsasən qurub. Muxtar respublikamızda, ümumilikdə, 2256 idmançı 176 qrupda bu idman növü ilə məşğuldur.

Sonra məşqçilərin fikir və təklifləri dinlənilib.

**Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Tağıyev Zeynalabdın İbrahim oğlunun adına olan A-016838 inventar nömrəli torpaq sahəsinin plan və ölçüsü, MH-0054778 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 62